Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

Haraya: **TƏMİMİ**
Göndərilmə nömrəsi: S/21-3558/03/17 Tarix: 09.02.17
Sənəd necə göndərilir: Elektron poçt
Səhifələrin sayı: 1
Məhdudluğu qrifi: Adi
Təciliyi: Təcili
Vacibliyi: Vacib

**Hörmətli cənab səfirlər, daimi nümayəndələr, baş konsullar və müvəqqəti işlər vəkilləri,**

İnternet vasitəsilə əldə etdiyimiz məlumata istinadən bildiririk ki, "Aray" təşkilatının (Artsax investisiya) təsisçilərindən biri, Daşnak partiyası Ali Şurasının üzvü Benyamin Bacakciyan erməni diasporundan olan iş adamlarının "Artsax"da (DQ) müxtəlif layihələrin icrasında maraqlı olduqlarını vurğulamışdır.

B.Bacakciyan kənd təsərrüfatı və heyvandarlığın inkişafı məqsədilə "Artsax Respublikası hökuməti" ilə əməkdaşlıq çərçivəsində Şaumyan və Kaşatağ rayonlarına münasib kənd təsərrüfatı kreditlərinin veriləcəyini bəyan etmiş və sərmayələrin əsasən BƏƏ, Küveyt, Livan və Avropa dövlətləri tərəfindən qoyulacağını qeyd edərək, Avstraliya və ABŞ tərəfindən də bu sahəyə maraq göstərildiyini (artdığını) diqqətə çatdırmışdır.

B.Bacakciyan keçən altı il ərzində təqribən min ailənin bu kreditlərdən istifadə etdiyini, Şaumyan və Kaşatağ rayonlarında kənd təsərrüfatının inkişafı məqsədilə 3.5 mln.ABŞ dolları məbləğində investisiya layihələrinin icra olunduğunu bildirmiş, təşkilatın iş adamlarının layihələri ilə kifayətlənmədiyini, eyni zamanda, "Artsax"da yaşayan və evlərini itirmiş şəxslər və əsgərlər üçün evlərin tikintisi planı üzərində işlədiyini qeyd edərək, təşkilatın bu məqsədlə 2016-cı il ərzində Aryavanda (Ermənistan) 25 evin tikintisini başa çatdırdığını diqqətə çatdırmışdır.

Qeyd edilənlərlə əlaqədar, məsələnin nəzarətdə saxlanılmasını və belə halların aşkar olunduğu halda Mərkəzin məlumatlandırılmasını xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Xələf Xələfov**

MŞAİ-nin rəisi Nazim Hüseynov

Rəis müavini Oktay Qurbanov

Şöbə müdiri 07.02.17 Elnur Məmmədzadə

İcraçı Orxan Məmmədov